

# Mədəni irsin qoruyucuları

*Azərbaycan xalqının zəngin bədii-tarixi irsi, o cümlədən respublikamızın muzeylərində dünya incəsənətinə məxsus böyük kolleksiyaların mövcudluğu xalqımızın dəyərli mənəvi və maddi sərvətidir. Bu kolleksiyaların nümunələrinin qorunması və bərpası ümdə məsələlərdən biridir.*

Azərbaycanda muzey sərvətlərinin elmi bərpası 1957-ci ilə təsadüf edir. Bu günə qədər Cənubi Qafqazda yeganə olan və fəaliyyət göstərən Muzey Sərvətlərinin və Xatirə Əşyalarının Elmi Bərpa (MSXƏEBM) Mərkəzi 1981-ci ildə Mədəniyyət Nazirliyi nəzdində yaradılmışdır.

MSXƏEBM-in vəzifələrinə respublikamızda mövcud olan muzey kolleksiyalarının elmi bərpası və konservasiyası, sərvətlərin vəziyyətinə ardıcıl qulluq və nəzarət daxildir. Mərkəzdə Rusiyanın qabaqcıl emalatxanalarında təhsil almış və böyük əməli iş təcrübəsi olan, yüksək dərəcəli peşəkar mütəxəssislər çalışır.

Hər il bizim mərkəz yüzlərlə incəsənət əsərlərini bərpa edib həyata qaytarır. Müxtəlif yaranma tarixi olan yağlı boya əsərləri, nadir tikmələr, geyimlər, xalça və xalça məmulatları, metaldan və keramikadan işlənmiş eksponatlar, qədim və müasir qravürlar, sulu boya əsərləri, sənədlər və s.-bunlar hamısı bərpaçılarımızın qızıl əllərindən keçib yeni həyat yaşayırlar.

Mərkəzdə 4 şöbə fəaliyyət göstərir:

1. Elmi şöbə
2. Yağlı boya şöbəsi
3. Qrafika şöbəsi
4. Tətbiqi-incəsənət şöbəsi

Professional bərpanın tələbləri - aşkarlıq, elmilik və nəzarətdir. Bütövlükdə bərpa işi professional təkmilləşdirmənin, praktik və nəzəri tədqiqatların, xüsusi bərpaya aid ədəbiyyatların tədqiqatı üzərində qurulur. Elmi tədqiqatlar eksponatın kimyəvi-texnoloji xüsusiyyətlərinin öyrənilməsindən, həmçinin eksponat haqqında tarixi-sənətşünaslıq məlumatlarının toplanılmasından ibarətdir və bərpanın metodikasını son nəticədə müəyyənləşdirir. Bütövlükdə mərkəzin bərpa fəaliyyətinin göstəriciləri elmi şöbədə toplanır. Həmçinin şöbə respublika muzeylərində keçirilən ilkin bərpa işlərində iştirak edir (preventiv bərpa işləri), əşyaların saxlanılmasına və qablaşdırılmasına dair tövsiyələr verir, profilaktik və konservasiya tədbirləri aparır.

Söylədiklərim beş ilə yaxın başçılıq etdiyim elmi şöbənin fəaliyyəti haqqında qısa məlumatdır. İxtisasım isə qrafika üzrə bərpaçı-rəssamdır. Bu sənətin sirlərinə Rusiyanın Sankt-Peterburq şəhərinin Ermitaj muzeyinin emalatxanasında yiyələnmişəm.

Mərkəzin qrafika şöbəsinin kiçik olmasına baxmayaraq gördüyümüz işlər çoxluq təşkil edir. Bu şöbədə mənimlə yanaşı qrafika şöbəsinin müdiri Xatirə Tağıyeva çalışır. Hər ikimiz Mərkəzdə peşəkar fəaliyyətimizə gənc yaşlarımızdan başlamışıq. 20 ildən artıq əməli iş təcrübəmiz var, hər ikimiz ali dərəcəli mütəxəssisik.

Mindən çox qrafik əsərlər bərpa etmişik.

Qərbi Avropa rəssamlarının əsərlərini, Şərq minatürlərini, tanınmış rəssamlardan Əzim Əzimzadə, B.Kəngərli, T.Salahov, M.Rəhmanzadə, H.Əliyev, Q.Kaşıyeva və s. yüzlərlə belə rəssamların əsərlərini bərpa etmişik.

Yuxarıdakıları nəzərə alaraq qrafika şöbəsində üzərində işlədiymiz bir neçə layihə barədə danışmaq istərdim.

Qrafik incəsənət əsərlərinin bərpası digər növ incəsənət əsərlərinin bərpasından mürəkkəbliyinə görə fərqlənir. Onları bərpa edərkən müxtəlif ifa tərzi və materialı ilə fərqlənən eksponatlarla üzləşirik. Qrafika əsərləri öz fiziki-kimyəvi xüsusiyyətlərinə görə ətraf mühitin dağıdıcı təsiri qarşısında acizdir. Mürəkkəb möhürləri, yapışqanlı lentlər, silikat yapışqanlar qrafik eksponatlara düzəlməz ziyan vurur. Bizim qrafika şöbəsinin təcrübəsindən məşhur Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun ev-muzeyindən XX əsrin əvvəllərinə aid qədim əlyazma-klavir notun silikat yapışqanı ilə zədələnməsini göstərmək olar.

Eksponat bərpaya köhnəlmiş və cırılmış hissələrinin silikat yapışqanı ilə arxadan bərkidilmiş (yapışdırılmış) şəkildə daxil ol-

muşdu. Bərpa zamanı arxa tərəfdə mövcud olan kağız yapışqanının qoparılması çətin idi. Çünki kağız silikat yapışqanının təsirindən o qədər nazikləşmişdi ki, onun mexaniki təmizlənməsi mətni tamamilə məhv edəcəkdi.

Mətni qoruyub saxlamaq üçün eksponatın üst tərəfi çay kağızı ilə xüsusi duru maye yapışqanla bərkidildi.

Quruduqdan sonra eksponatın arxasında olan kağızlar və silikat yapışqanı səliqə ilə götürüldü və təmizləndi. Sonra isə hər səhifəyə mikalent kağızından yeni əsas verildi. Son nəticədə Ü.Hacıbəyovun not əlyazması tamamilə bərpa olundu.

Digər nümunəyə baxaq. Bu, Nizami adına ədəbiyyat muzeyin XV əsr Behzad və XVI əsr Səfəvi məktəblərinə aid Şərq minatürlərinin zədələnmiş vərəqlərinin bərpasıdır.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərinə aid olan bu minatür nüsxələri Şərq rəssamlığının gözəl ənənələrini davam etdirən qiymətli əsərlər kimi bizim bərpa mərkəzinə daxil olmuşdu. Bu minatürlərin çox incə olması aparılmış bərpa işlərinin mürəkkəbliyini göstərir.

Minatürlər nazik perqament kağızı üzərində akvarellə işlənmişdi.

Üzərində qabarma, qırış kimi dəyişikliklər var idi. Rəsmlərdə rəng itkisi, çirk və göbələk ləkələri var idi. Eksponatları tədqiq etdikdən sonra biz belə bir bərpa üsulu seçdik: vərəqlərin quru təmizlənməsi, çirk və ləkələrin götürülməsi, vərəqin yuyulması, vərəqin arxa üzündəki cırıqların birləşdirilməsi, presdə qurudulması, tonvermə.

Qrafik materialların göbələk ləkələrinin təmizlənməsi prosesi də çox mürəkkəb və maraqlıdır. Buna misal olaraq Azərbaycan İncəsənət muzeyinin fondundan müəllifi Qrin V. olan "İoan xaçvuran" əsərini göstərmək olar. Qravür mesosinto texnikasında ifa olunmuşdur və XIX əsrin Qərbi Avropa məktəbinə məxsusdur.

Qravür rütubətdən korlanmış şəkildə mərkəzə daxil olmuşdu. Üst hissəni kif bürümüşdü. Bu hissə qabarmışdı. Arxa tərəf qapqara kif ləkələri ilə örtülmüşdü. Kifin ləğvi çox çətin idi. Bunun üçün kimyəvi təmizləmədən istifadə olundu. İlkin tədqiqatlar göstərdi ki, bu ləkələrin ləğvi üçün xüsusi kimyəvi maddələrdən istifadə edilməlidir. Nəticədə bütün ləkələr təmizləndi. Sonra isə digər bərpa prosesləri, yəni yuyulma, neytrallaşdırma, vərəqin bütöv şəklə salınması, preslənmə, tonvermə işləri görüldü.

Həmin muzeydən və Əzim Əzimzadənin ev-muzeyindən rəssamın 30-cu illərə aid olan bir çox əsərləri mərkəzimizə daxil olmuş və bizim qrafika şöbəsində bərpa olunmuşdur. Rəssamın sulu boya, quaş və rəngli mürəkkəblə işlənmiş qarışıq texnikalı əsərlərinin bərpası çox çətin idi. Əsərlər çox çirklənmiş, kiflənmiş, rəngi solmuş, deformasiyaya uğramış, göbələk və s. ləkələri ilə zədələnmişdi. Eksponatların üzərində aşağıdakı bərpa işləri aparıldı: dezinfeksiya, səthin quru təmizlənməsi, jelatinin sulu məhlulu ilə rəngli təbəqənin bərkidilməsi. Bundan sonra kimyəvi təmizlənmə keçirildi. Müxtəlif lazımi bərpa işlərindən sonra eksponatlar tam əvvəlki şəklini aldı.



Sadalanmış kağız üzərindəki bərpa işləri mərkəzimizin qrafika şöbəsi tərəfindən görülmüş bərpa işlərinin çox kiçik bir hissəsidir.

Mərkəzimizin dövlət tərəfindən qayğıya və maliyyə yardımına ehtiyacı var. Maddi vəziyyətin çətinliyi yeni texnologiyalardan istifadəni mümkünsüzləşdirir. Ona görə də biz ziyalılardan, imkanlı şəxslərdən, xüsusi fondlardan kömək gözləyirik.

Onların köməyi sayəsində yeni layihələr üzərində çalışıb daha çox qiymətli bədii əsərləri bərpa edib həyata qaytara bilərik.

Keçmiş əsrlərin mədəni irsini qoruyub gələcək nəsillərə ötürmək heç də asan iş deyil. Bunun üçün çox güc tələb olunur. İşin müvəffəqiyyəti isə bizim hər birimizdən asılıdır.

**Ülviyyə ŞİRİNOVA,**
***elmi-tədqiqat şöbəsinin müdiri, qrafika üzrə bərpaçı-rəssam***